

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 159 (23.571)

*22 sentyabr 2020-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclas keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev iclasda videoformatda çıxış edib.

İclasda, ümumilikdə, 182 ölkənin dövlət və hökumət başçısı videoformatda çıxış edəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı sayca altıncı idi. Dünya üzrə 182 ölkə arasında Azərbaycanın dövlət başçısının sayca altıncı çıxış etməsi, şübhəsiz ki, Prezident İlham Əliyevə həm Azərbaycanın dövlət başçısı, həm də Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq səviyyədə göstərilən hörmət və etimadın təzahürüdür.

Dövlətimizin başçısı çıxışında bildirib ki, Azərbaycan Respublikası 120 ölkənin yekdil qərarı ilə 2016-cı ildə Qoşulmama Hərəkatının sədri seçilmişdir. 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında Azərbaycan sədrliyi öz üzərinə götürmüşdür.

Azərbaycan Respublikasının Prezidenti çıxışında Ermənistanın öz öhdəliklərini kobud şəkildə pozduğunu və Azərbaycana qarşı hərbi güc tətbiq etdiyini diqqətə çatdırıb. Bildirilib ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal etmişdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir.

## Muxtar respublikanın energetika sahəsində qazanılmış 25 illik tarixi uğur

***Bu gün dövlətlərin milli təhlükəsizliyinin təmin olunmasında enerji təhlükəsizliyi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, dünya gündəmində baş verən əksər münaqişələrin təməlində enerji təhlükəsizliyi siyasi məfhum kimi meydana çıxır. Bu məfhum isə, mübaliğəsiz şəkildə desək, bu gün bütünlükdə bəşəriyyətin mövcudluğunu təmin edən ilkin resurslardan biridir.***



Zəngin enerji mənbələrinə malik zəif idarə olunan ölkələr və həmin zəngin mənbələri mənimsəmək istəyən güclü ölkələr… Hazırda dünyada mövcud olan bir çox münaqişələrin qarşılıqlı tərəfləri məhz bu qrupdan olan ölkələrdir. Azərbaycan isə bu gün dünyada güclü enerji ehtiyatlarına malik və güclü siyasi iradə ilə idarə olunan tək-tük ölkələrdəndir. O ölkələrdən ki sahib olduğu enerji ehtiyatlarının istifadəsi xalqın firavan həyatına, ölkəmizin iqtisadi tərəqqisinə və ən əsası siyasi müstəqilliyinə hesablanmışdır. Əlbəttə, bütün bunlar xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrikliklə, məqsədyönlü və mərhələli şəkildə həyata keçirdiyi iqtisadi siyasət nəticəsində mümkün olmuşdur.

Ulu öndərimiz Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə ölkəmizdə enerji təhlükəsizliyi sahəsində mühüm işlər görmüşdür. Böyük şəxsiyyətin güclü siyasi iradəsi nəticəsində 1994-cü il sentyabr ayının 20-də Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 neft şirkəti arasında imzalanan “Əsrin müqaviləsi” isə müstəqil ölkəmizin tarixinə enerji təhlükəsizliyinin əsasının qoyulduğu möhtəşəm hadisə kimi yazıldı.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan bu inkişaf strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Dövlət başçısı tərəfindən formalaşdırılan uğurlu iqtisadi model ölkəmizin, o cümlədən muxtar respublikamızın hərtərəfli, dinamik inkişafını təmin etmiş, bütün sahələrdə olduğu kimi, energetika sistemində də yüksək nailiyyətlər əldə olunmuşdur.

Muxtar respublikamızın sosial-iqtisadi həyatının dinamik inkişafında böyük çəkiyə malik energetika sisteminin əsası ötən əsrin 70-ci illərində qoyulmuşdur. Belə ki, ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə respublikanın elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə yönəlmiş layihələr çərçivəsində 1971-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində Araz çayı üzərində İran-Azərbaycan “Araz” Su Elektrik Stansiyası adı altında gücü 22 meqavat olan stansiya inşa olunmuşdur.

Bundan sonrakı dövrlərdə də muxtar respublikada enerji təhlükəsizliyi istiqamətində gələcəyə hesablanmış siyasət uğurla davam etdirilmişdir.1992-1993-cü illərdə yaranmış çətin şəraitə baxmayaraq, blokadada olan muxtar respublikanı elektrik enerjisi ilə təchiz etmək məqsədilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə İran İslam Respublikasından 132 kilovoltluq, Türkiyə Respublikasından 154 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətləri çəkildi. Nəticədə, 1993-cü ilin ortalarında muxtar respublikaya İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından 63 meqavat elektrik enerjisi daxil olurdu ki, bu da həmin dövrün çətin şəraitində əhalinin yaşayış standartlarının normallaşmasında mühüm mərhələ idi.

Əsas məsələlərdən biri də elektrik enerjisi mənbələrinin müəyyənləşdirilməsi ilə yanaşı, həmin enerjinin muxtar respublikada paylanılmasını yaxşılaşdırmaq, enerjinin ötürülməsində texniki itkiləri azaltmaq, avadanlıqların artıq yüklənməsinin qarşısını almaq, enerji təchizatının etibarlılığını yüksəltmək idi ki, bu istiqamətdə də bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Sonrakı mərhələdə məqsədyönlü siyasətin həyata keçirilməsi mövcud elektrik enerjisi problemlərinin tamamilə aradan qaldırılması ilə yanaşı, muxtar respublikanı enerji ixracı imkanlarına malik bir regiona çevirmişdir.

Bu sahədə reallaşdırılan kompleks tədbirlər çərçivəsində 1992-ci ildə 60 meqavat gücündə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası, 2006-cı ildə 4,5 meqavat gücündə Heydər Əliyev Su Anbarı üzərindəki elektrik stansiyası, həmin ildə 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 2010-cu ildə 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə 20,5 meqavat gücündə “Arpaçay-1” Su Elektrik Stansiyası,



həmin ildə 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik Stansiyası, 2015-ci ildə 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası (2017-ci ildə stansiyanın gücü daha 2 meqavat artırılaraq ümumi qoyuluş gücü 22 meqavata çatdırılmışdır), 2019-cu ildə 2 meqavat gücündə Kəngərli Günəş Elektrik Stansiyası və nəhayət, 2020-ci ildə 3 meqavat gücündə Qabıllı Günəş Elektrik Stansiyası tikilib istifadəyə verilmişdir.

1995-ci ilədək muxtar respublikada ümumi qoyuluş gücü 82 meqavat olan 2 elektrik stansiyası fəaliyyət göstərirdisə, ötən 25 ildə bu göstərici 5 dəfə artaraq 10-a çatdırılmışdır. Bu gün muxtar respublikada istismar olunan 10 elektrik stansiyasının ümumi qoyuluş gücü 244,4 meqavat təşkil edir ki, bunlardan da ümumi qoyuluş gücü 97,4 meqavat olan 8 stansiya (ümumi qoyuluş gücü 70,4 meqavat olan 5 SES və 27 meqavat olan 3 GES) alternativ və bərpa olunan enerji mənbələri hesabına fəaliyyət göstərir. Hazırda isə 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının və 15,6 meqavat gücündə Tivi Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Layihələr yekunlaşdırıldıqdan sonra bərpa olunan enerji mənbələri hesabına fəaliyyət göstərən stansiyaların ümumi qoyuluş gücü 149 meqavat təşkil edəcəkdir ki, bu da muxtar respublikada enerji istehlakının 100 faizinin bu mənbələr hesabına ödənilməsinə imkan verəcəkdir. Həmçinin Şərur rayonu ərazisində 5 meqavatlıq Günəş Elektrik Stansiyasının tikintisi də nəzərdə tutulmuşdur.

Əlbəttə, bu göstərici 25 il əvvəl elektrik enerjisinə olan tələbatını qonşu ölkələrdən idxal hesabına təmin edən bir diyar üçün tarixi nailiyyətdir. Təsadüfi deyil ki, 2019-cu ilin 18 noyabr tarixində ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul edərkən demişdir: ***“...Bu, doğrudan da tarixi nailiyyətdir. Çünki Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsindən coğrafi baxımdan ayrılıb və belə olan halda enerji təminatı xüsusi əhəmiyyət kəsb edir. Bu, əslində, təhlükəsizlik məsələsidir və heç bir daxili enerji resursu olmayan Naxçıvan hazırda elektrik enerjisini ixrac edir”.***

Son dövrlər dünyada ekoloji problemlərin kəskin artması və dövlətlərin daha ucuz və səmərəli enerji ehtiyatlarına marağı fonunda alternativ və bərpa olunan enerji mənbələrindən istifadə məqsədilə aparılan fəaliyyət sürətlə artmaqdadır. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin məlumatına əsasən 2019-cu ildə inşa edilən yeni elektrik stansiyalarının 75 faizi məhz bərpa olunan enerji mənbələri hesabına reallaşdırılmışdır ki, bu da rekord göstəricidir. Həmçinin Azərbaycan Respublikası Dövlət Energetika Nazirliyinin məlumatına əsasən 2019-cu ildə bərpa edilən enerji hədəfləri olan ölkələrin sayı 169-dan 172-yə yüksəlmiş, elektrik enerjisini 100 faiz bərpa olunan enerji mənbələrindən qarşılamağı hədəfləyən ölkələrin sayı isə 57-dən 61-ə çatmışdır.

Yeni istehsal güclərinin yaradılması hesabına son 25 ildə elektrik enerjisinin istehsalında 4 dəfəyədək artıma nail olunmuşdur. Energetika sahəsində bu müddət ərzində əldə edilmiş uğurların nəticələrini baza dövrü ilə müqayisədə daha dəqiq görmək mümkündür. Belə ki, əgər 1995-ci ildə muxtar respublika üzrə istehsal olunmuş elektrik enerjisinin həcmi 111,3 milyon kilovat-saat (bunun 111,1 milyon kilovat-saatı Araz SES-də, 0,2 milyon kilovat-saatı isə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında istehsal olunmuşdur) təşkil edirdisə, bu göstərici 2019-cu ildə 418,4 milyon kilovat-saat olmuş, onun da 231,7 milyon kilovat-saatı və ya 55,4 faizi alternativ və bərpa olunan enerji mənbələrinin payına düşmüşdür. Əgər 1995-ci ildə muxtar respublikada istehsal olunan adambaşına düşən illik elektrik enerjisi 335,4 kilovat-saat təşkil edirdisə, 2019-cu ildə bu göstərici 3 dəfəyədək artaraq 917,3 kilovat-saat olmuşdur (bu dövr ərzində muxtar respublikada əhali sayı 1,4 dəfə, elektrik stansiyalarının sayı 5 dəfə, istehsal olunan elektrik enerjisinin həcmi 4 dəfəyədək artmışdır).

Təkcə 2020-ci ilin ötən 8 ayında istehsal olunmuş elektrik enerjisinin həcmi 283,1 milyon kilovat-saat təşkil etmişdir ki, bu da 1995-ci ilin illik göstəricisindən 2,5 dəfə çoxdur. Cari ilin ötən dövründə istehsal olunmuş elektrik enerjisinin isə 57 faizi alternativ və bərpa olunan enerji mənbələrinin payına düşmüşdür. Qeyd edək ki, dünya üzrə yalnız bir neçə ölkənin enerji sərfində bərpa olunan enerjidən istifadə 50 faizi ötür.

Bu gün artıq əminliklə deyə bilərik ki, muxtar respublikanın enerji təhlükəsizliyi tamamilə yerli istehsal hesabına təmin olunur və bunun da böyük bir hissəsi alternativ və bərpa olunan enerji mənbələri hesabına həyata keçirilir. Əldə edilmiş bu nailiyyətlər isə muxtar respublikanın malik olduğu potensialın son 25 ildə əhalinin rifahı naminə düzgün və səmərəli şəkildə dəyərləndirilməsindən, həmçinin dövrümüzün qlobal çağırışlarına həssaslıqla yanaşmaqdan irəli gəlir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Muxtar respublikada enerji təhlükəsizliyi sahəsində qarşıda duran əsas vəzifə dünya dövlətlərinin də xüsusi diqqət yetirdiyi bərpa olunan enerji ilə təminat işidir. Ona görə də muxtar respublikada günəş enerjisindən, eləcə də mövcud hidroenerji potensialından səmərəli istifadə olunur, dağ çaylarında yeni su elektrik stansiyaları tikilir... Görülən işlərin nəticəsidir ki, artıq muxtar respublikada elektrik enerjisinə olan tələbat yerli istehsal hesabına ödənilməklə yanaşı, həm də ixrac imkanları yaranmışdır”.***

*Muxtar respublika üçün həyati əhəmiyyət kəsb edən energetika sistemində qazanılmış bu tarixi nailiyyətlər həyata keçirilən müdrik siyasət nəticəsində mümkün olmuşdur. Müdriklik isə fransız imperatoru, görkəmli sərkərdə Napoleon Bonapartın dediyi kimi, çətinlə qeyri-mümkün olanı fərqləndirmək qabiliyyətidir. Bu gün əldə edilmiş tarixi nəticələr bir vaxtlar Naxçıvanın bugünkü vəziyyətini qeyri-mümkün hesab edənlərə inkişafa gedən yolun bir az çətin olduğunu, ancaq taleyini millətin taleyi ilə bağlayan MÜDRİK İNSAN üçün heç də qeyri-mümkün olmadığını sübut edir.*


**Elçin ƏLİYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri***

## Muxtar respublika muzeylərinə kollektiv gediş yenidən təmin olunub



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamı muxtar respublikada dövlət orqanları əməkdaşlarının muzeylərə kollektiv gedişinin təmin olunması ilə yanaşı, həm də qədim Oğuz yurdunun tarixi keçmişinin, mədəniyyətinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Dünyada yayılan pandemiyanın qarşısının alınması məqsədilə müvəqqəti olaraq dayandırılan muzey ziyarətləri yenidən bərpa edilib.*

Sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Heydər Əliyev Muzeyində olublar. Muzeyin direktoru Ramil Orucəliyev mədəniyyət müəssisəsi barədə ətraflı məlumat verərək bildirib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncamla yaradılıb və həmin ilin may ayının 10-da fəaliyyətə başlayıb.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev 1999-cu il oktyabr ayının 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək buradakı ekspozisiya ilə tanış olub. Muzeydəki eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ulu öndərimizin uşaqlıq və gənclik dövrləri, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir.

Vurğulanıb ki, 420 eksponatla fəaliyyətə başlayan muzeyin fondunda hazırda 4391 eksponat vardır ki, onun da 2997-si kitabxana və ekspozisiyada nümayiş olunur. Dəyərli eksponatlar onu seyr edən hər kəsin qəlbində dərin iz qoyur, yüksək təəssürat yaradır. Dahi şəxsiyyətin şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, o cümlədən gənc nəsil üçün əsl həyat məktəbidir. Xalqımızın müqəddəs ziyarətgahına çevrilmiş muzey ulu öndərimizin dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ideyalarını təbliğ edərək gəncləri dahi öndər Heydər Əliyev kimi xalqa, Vətənə və dövlətə sədaqətli olmağa çağırır. Burada nümayiş etdirilən eksponatların hər biri ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Ötən illər ərzində muzeydə ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti ilə bağlı aidiyyəti təşkilatlarla birgə elmi konfranslar keçirilib, məktəblilərin və tələbələrin üçün lektoriyaların və açıq dərslərin keçilməsi diqqətdə saxlanılıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin kollektivləri Dövlət Bayrağı Muzeyini, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyini, Daxili İşlər Nazirliyinin kollektivi Ədəbiyyat Muzeyini, Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Hərbi Prokurorluğun və Naxçıvan Şəhər Prokurorluğunun kollektivləri “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksini və Gülüstan türbəsini, Ədliyyə Nazirliyi və Penitensiar Xidməti Aparatının əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyini, Fövqəladə Hallar Nazirliyi və struktur qurumların kollektivləri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini, Dövlət Gömrük Komitəsinin əməkdaşları Cəmşid Naxçıvanski Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının əməkdaşları Bəhruz Kəngərli Muzeyini ziyarət ediblər.

Maliyyə Nazirliyinin əməkdaşları Xatirə Muzeyində, İqtisadiyyat Nazirliyinin kollektivi Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyində, Kənd Təsərrüfatı Nazirliyinin, “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin kollektivləri Naxçıvan Dövlət Rəsm Qalereyasında, Rabitə və Yeni Texnologiyalar Nazirliyi və struktur qurumları, “Naxçıvanpoçt” publik hüquqi şəxsin əməkdaşları Qarabağlar Türbə Kompleksində, Səhiyyə Nazirliyinin kollektivi Duz Muzeyində, Təhsil Nazirliyinin əməkdaşları Milli Dəyərlər Muzeyində, Mədəniyyət Nazirliyinin kollektivi Yusif Küseyir oğlu türbəsində, Gənclər və İdman Nazirliyinin əməkdaşları Nəbatat bağında, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivi Naxçıvan Biznes Mərkəzində olublar.

Sentyabrın 19-da muxtar respublikanın şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da muzeyləri ziyarət ediblər.

*Qeyd edək ki, muzey ziyarətləri zamanı sosial məsafənin saxlanılması təmin ediləcək.*

**Nail ƏSGƏROV**

*Bu günə qədər ABŞ-ın **“Eurasia Review”** qəzetində Naxçıvan Muxtar Respublikası barədə 40-dan artıq məqalə nəşr olunmuşdur. 17 sentyabr 2020-ci il tarixdə amerikalı jurnalist və diplomat Peter Tasenin **“Eurasia Review”** qəzetində **“Naxçıvan: Azərbaycanın arxeoloji təməl daşı”** başlıqlı məqaləsi nəşr edilmişdir. Həmin məqalənin birinci hissəsini təqdim edirik.*

## Naxçıvan: Azərbaycanın arxeoloji təməl daşı




2014-cü ilin sentyabr ayında Avropa Şurasının keçmiş baş katibi, tanınmış avstriyalı diplomat Walter Schwimmer ilə Naxçıvan Muxtar Respublikasında səfərdə olduq. Naxçıvan şəhərində olduğumuz müddətdə Avrasiya məkanında nadir memarlıq abidəsi olan Yusif Küseyir oğlu və Qarabağlar türbələrini ziyarət etmək fürsətimiz oldu.

Yusif Küseyir oğlu türbəsi Naxçıvan şəhərində memarlıq abidəsidir. Bu abidə Xiyabani prospektində yerləşir və xalq tərəfindən Atababa türbəsi və ya Atababa günbəzi olaraq tanınır. Memarlıq şah əsəri səkkiz əsr bundan əvvəl tikilmiş, XX əsrin əvvəllərində müəyyən bərpa işləri aparılmış, mühəndis qurğuları gücləndirilmişdir. Bu nadir türbə yeraltı sərdabədən və yerüstü qülləvarı hissədən ibarətdir. Planda abidənin yerüstü hissəsi daxildən və xaricdən səkkizbucaqlı şəklindədir.

Türbənin səkkizbucaqlı prizmatik gövdəsi xaricdən piramidaşəkilli, daxildən isə tavan çatma tağşəkilli sferik günbəzlə örtülmüşdür. Türbədə ikiqat günbəz quruluşunun ən görkəmli, bizim zamanəmizə qədər əvvəlki şəklini mühafizə etmiş və indiyə qədər gəlib çatmış yeganə bir nümunəsini görürük. Yüksək mühəndis həllinin nəticəsidir ki, Yusif Küseyir oğlu türbəsi Azərbaycanın qülləvarı türbələri içərisində üst piramidal örtüyü 800 ildən artıq bir müddətdə salamat qalan yeganə abidədir. Türbənin üzərindəki kitabədə bildirilir ki, “Bu türbə xacə, sanlı rəis, dinin zəkası, İslamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur”. Həmin kitabədə türbənin hicri 557-ci ilin şəvval ayı (miladi 1162) tikildiyi göstərilir. Əsas fasaddan sol tərəfdəki kitabədə isə “Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir” şəklində türbənin memarının adı qeyd olunmuşdur. Türbənin səthlərindən yuxarı hissə qurşaq şəklində ayrılmış və burada kitabə yerləşdirilmişdir. Qurşaqda kufi xətlə “Quran”dan ayələr yazılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu əzəmətli abidənin və onun kitabələrinin qorunub saxlanmasına xüsusi diqqət yetirmiş, mühüm əhəmiyyətə malik olan xüsusi memarlıq şah əsərinin bərpası üçün vəsait ayırmışdır.

Türbənin yeraltı hissəsi sərdabə, yerüstü hissəsi isə xatirə qülləsindən ibarətdir. Səkkizkünclü türbənin çıxıntılı dayaqlar şəklində olan tilləri sadə hörgülü kərpicdən yaradılmışdır. Binanın qəfəsini təşkil edən bu qurğuların arasındakı sahələr həndəsi ornamentli formada üzlənmiş, ayrı-ayrı səthlər müstəqil motivli naxışlarla işlənmişdir. Ornamentlər kiçik kərpiclərdən quraşdırılmış, gəc məhlulu ilə səthlərə bərkidilmişdir. Türbənin qərbə baxan səthi digər səthlərdən fərqli olaraq, giriş baştağı şəklində tərtib edilmişdir. Ornament bəzəkləri tikilinin memarlıq formaları ilə həmahəngdir. Sərdabə ilə yerüstü hissə arasındakı günbəz də çatma tağlıdır. Sərdabə günbəzinin ortasında binanı nəmişlikdən qorumaq üçün silindrik formada xüsusi havatəmizləyici boşluq qoyulmuşdur. Sərdabəyə qərb tərəfdəki pilləkənlərlə enilir. Əsas fasaddakı giriş portalı çatma tağlı taxça, qapısı isə düzxətli tağ formasındadır. Yusif Küseyir oğlu türbəsinin həm əsas tikintisi, həm də bəzək hörgüsü keyfiyyətli bişmiş kərpiclə işlənmişdir. Bu da abidənin aydın və təmiz həndəsi biçiminin bütövlüyünü gücləndirir, ona vahid, ifadəli, qırmızımtıl kolorit verir. Prizmatik gövdə, piramidal günbəz, üzlərin girinti-çıxıntıları, bol işıq-kölgə çalarları ilə bu koloriti zənginləşdirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında bu böyük şah əsər bərpa olunmuşdur.

Naxçıvan dünya mədəniyyətinin bir xəzinəsidir, beynəlxalq səviyyədə tədqiq edilməli və daimi olaraq təbliğ olunması vacib olan memarlıq xüsusiyyətlərinə malikdir. Doğma, qədim Naxçıvan, həqiqətən, beynəlxalq diqqətə layiq incidir.

## Yeni təmir olunan binaların sakinləri ilə görüş keçirilib



Naxçıvan şəhərində aparılan tikinti-quruculuq işlərindən şəhərimizdəki Zəroş Həmzəyeva və “İstiqlal” küçələrindəki bir neçə yaşayış binasına da pay düşüb. Həmin küçələrdə altmışıncı illərdə istifadəyə verilmiş bir neçə yaşayış binasında əsaslı təmir işləri aparılıb, binaların təməli möhkəmləndirilib, giriş qapıları, pəncərələr, dam örtüyü dəyişdirilib, kommunikasiya xətləri yenilənərək lazımi kommunal şərait yaradılıb.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov həmin binaların sakinləri ilə görüşüb, yaradılan şəraitlə tanış olub. İcra başçısı bildirib ki, Naxçıvan şəhərinin gözəlliyinə hər gün yeni çalarlar əlavə olunur. Yeni binalar, yaşayış kompleksləri inşa edilir, köhnə binalara yeni həyat verilir. Bütün bu işlər ümummilli lider Heydər Əliyevin quruculuq siyasətinin Naxçıvanda uğurla həyata keçirildiyini göstərir. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə təmir olunan bu yaraşıqlı binalar da həmin siyasətin bəhrəsidir. Aparılan belə quruculuq işləri əhalinin rahatlığı, firavan həyatı üçündür.

Qeyd edilib ki, qurub-yaratmaq işin birinci tərəfidir. Əsas məsələ qurulanları, yaradılanları qorumaq və gələcək nəsillərə olduğu kimi çatdırmaqdır. İnanırıq ki, həm binalarda, həm də ətraf ərazidə yaradılan səliqə-sahman sakinlər tərəfindən qorunacaq və şəhərimizin gözəlliyinə heç bir xələl gəlməyəcəkdir.

Sonra Naxçıvan Şəhər Polis İdarəsinin rəisi, polis polkovnik-leytenantı Zahid Gözəlov çıxış edərək təmir olunan binaların şəhərimizə xüsusi gözəllik bəxş etməsindən və bu gözəlliyi hamılıqla qorumağın vacibliyindən danışıb.

Təmir olunan binaların sakinləri yaradılan şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

**Qafar QƏRİB**

***“Naxçıvan Muxtar Respublikasının orta ümumtəhsil müəssisələrini əhatə edən interaktiv tədris üçün müvafiq avadanlıq və kompüter proqramının təqdim edilməsi layihəsi” çərçivəsində Təhsil Nazirliyində “Huawei” şirkətinin Azərbaycan üzrə baş ofisinin icraçı direktoru Lu Canlin və Avrasiya regionları üzrə korporativ biznes rəhbəri Ma Tian ilə görüş olub. Görüşdə layihənin icrası ilə əlaqədar müzakirə və danışıqlar aparılıb.***

## İnteraktiv və elektron vasitələrdən istifadə imkanları genişləndiriləcək

Müzakirə zamanı Təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilə göstərilən dövlət qayğısı və təhsil müəssisələrində yaradılan şərait barədə ətraflı məlumat verib. Bildirib ki, təklif olunan layihənin icrası nəticəsində Naxçıvan Muxtar Respublikasının ümumtəhsil müəssisələrində interaktiv və elektron tədris vasitələrindən istifadə imkanı genişləndiriləcək. Həyata keçiriləcək layihə çərçivəsində infrastrukturun quraşdırılması məqsədilə Çin Xalq Respublikası tərəfindən təmin ediləcək avadanlıqlar imkan verəcəkdir ki, Təhsil Nazirliyində tam təşəkküllü məlumat mərkəzi, tədris vasitələrinin yaradılması üçün çəkiliş studiyası və bu materialların tədrisdə istifadə olunması üçün ümumtəhsil müəssisələrində informasiya-kommunikasiya sistemləri quraşdırılsın.



Vurğulanıb ki, muxtar respublikada layihənin həyata keçirilməsi üçün hərtərəfli şərait mövcuddur.

Görüş zamanı “Huawei” şirkətinin nümayəndələri şirkət tərəfindən aparılan hazırlıq işlərinin artıq yekunlaşmaq üzrə olduğunu və layihənin yaxın gələcəkdə gerçəkləşməsi üçün zəruri addımların atılacağını bildiriblər.

Sonra layihənin həyata keçirilməsi üçün mövcud imkanlarla tanış olmaq məqsədilə qonaqlar Təhsil Nazirliyi, Naxçıvan şəhər 5 nömrəli, Şahbuz şəhər 2 nömrəli, Ağbulaq və Türkeş kənd tam orta məktəblərində elektron lövhəli siniflər, kompüter otaqları ilə tanış olublar.

Qeyd edək ki, quraşdırılacaq avadanlıqlar içərisində 3 dəst Full HD formatında kamera sistemi, çəkilişlər zamanı müəllimin avtomatik izlənməsi sistemi, 2 dəst səs sistemi, interaktiv rəqəmsal lövhə dəsti, Full HD formatında videoqeydiyyat sisteminin və müvafiq proqram təminatının təqdim edilməsi nəzərdə tutulub. Eyni zamanda muxtar respublikanın təhsil müəssisələrində şəbəkə aqreqasiya qurğuları və videokonfrans sistemlərinin quraşdırılması nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Tofiq Bakıxanov xalqımızın tarixi keçmişində, elm və mədəniyyətində öz yeri olan böyük bir nəslin ənənələrini ləyaqətlə davam etdirərək Azərbaycan musiqi mədəniyyətinə gözəl töhfələr vermişdir.*

***Heydər ƏLİYEV***
***ümummilli lider***

# Görkəmli bəstəkarın Naxçıvan sevgisi



***Azərbaycan Respublikasının Xalq artisti, Əməkdar incəsənət xadimi, Bakı Musiqi Akademiyasının professoru, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının İncəsənət doktoru, "Humay" mükafatı laureatı, Abbasqulu ağa Bakıxanov adına mükafatın üç dəfə laureatı, "Uğur" mükafatı laureatı, "Min bir mahnı" milli musiqi və mahnı mükafatı laureatı, İran İslam Respublikasında keçirilən ilk muğam festivalının Fəxri mükafatçısı, Tehran "Surə" Universitetinin Fəxri diplom mükafatçısı, ABŞ-ın "Fulbrayt-Heys" təqaüdü laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, "Şöhrət" ordenli bəstəkar, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, İran İslam Respublikasının Tehrandakı Musiqi və Memarlıq "Azad" Universitetinin fəxri doktoru Tofiq Əhməd ağa oğlu Bakıxanov Azərbaycan professional bəstəkarlıq məktəbinin layiqli davamçılarından biridir.***

Çoxşaxəli və məhsuldar yaradıcılığı, əsasən, XX əsrin ortalarında formalaşmağa başlayan Tofiq Bakıxanov bu günədək, demək olar ki, operadan başqa, musiqinin bütün janrlarında əsərlər yazmış, musiqili səhnə əsərləri – baletlər, musiqili komediyalar, simfonik orkestr üçün əsərlər (simfoniyalar, simfonik poemalar, uvertüralar, simfoniyettalar, simfonik muğamlar, konsertlər), xor üçün əsərlər, instrumental əsərlər, kamera-vokal əsərlər və sair onun qələminin məhsulu olmuşdur. Zəngin yaradıcılıq irsi yaratmış bəstəkarın hər bir əsəri – istər irihəcmli, istərsə də kiçikhəcmli əsərləri olduqca qiymətlidir.

Azərbaycanın mötəbər nəsillərindən birinin – Bakıxanovlar nəslinin nümayəndəsi olan Tofiq müəllimin milli musiqi tariximizə yüksək məharətlə öz adını yazdırması elə gözlənilən bir hadisə idi. Atası görkəmli tarzən, muğam bilicisi Əhməd ağa Bakıxanovdan öyrəndiyi muğamlar onun yaradıcılığı üçün əsaslı bünövrə olması ilə yanaşı, dahi Qara Qarayevin sinfində musiqinin incəliklərini öyrənməsi T.Bakıxanovun dünyagörüşünün, yaradıcılıq üslubunun formalaşmasına, professional zirvəyə çatmasına səbəb olmuşdur. Görkəmli bəstəkarımız Tofiq Quliyev deyirdi: "Tofiq Bakıxanov ona görə xoşbəxt bəstəkardır ki, elə bir ailədə doğulub, böyük bəstəkar və gözəl insan Qara Qarayevin sinfində təhsil alıb. Belə bir şəxsin Azərbaycan musiqisində mühüm rol oynaması təbiidir. T.Bakıxanov musiqinin bütün janrlarında fəal yaradıcılıq göstərən bir sənətkardır. Onun simfonik, kamera, səhnə musiqisindən ibarət əsərləri dəyərli sənət nümunələridir".

Müəllimi Q.Qarayevin klassik musiqinin milli ənənələr əsasında inkişaf etdirilməsi və bu inkişafda müasirlik mövqeyindən çıxış etmək prinsipi T.Bakıxanovun da yaradıcılıq üslubunda özünü büruzə verir. Bəstəkarın əsərlərində xalq musiqisi ilə dərin bağlılıq müasir bəstəkarlıq yazı texnikası ilə üzvi vəhdət yaradır. Belə ki, o, istər irihəcmli, istərsə də kamera əsərlərində milli musiqi xəzinəsindən bacarıqla bəhrələnərək uğurlu bədii nəticələrə nail olur. Azərbaycan musiqi tarixində ilklərə imza atan Tofiq Bakıxanov Azərbaycanda ilk solist skripkaçılardan olmuş, viola, violonçel, fleyta üçün sonata və konsert janrına, o cümlədən qoboy, klarnet, truba alətləri üçün konsert janrına ilk dəfə olaraq müraciət etmiş, Azərbaycanda ilk birpərdəli baletin yaradıcısı olmuşdur. Dahi Q.Qarayevdən yüksək qiymət almaq violonçel ilə simfonik orkestr üçün birinci konsertinin ilk dinləyişindən sonra da (1958-ci il) T.Bakıxanova qismət olmuşdur. Belə ki, əsəri dinlədikdən sonra Qarayev bəstəkarı təbrik edərək demişdir: "Tofiq Bakıxanov fəxr edə bilər ki, Azərbaycan musiqi tarixində ilk violonçel konsertinin müəllifidir".

Ü.Hacıbəyovun anadan olmasının 60 illiyi münasibətilə keçirilən konsertdə T.Bakıxanovun solist kimi "Arşın mal alan" musiqili komediyasının mövzuları əsasında fantaziyanı ifa etməsini bəstəkar belə xatırlayır: "Xoşbəxtliyimdən dahi bəstəkarın 60 illik yubileyi ərəfəsində simfonik orkestrin müşayiətilə "Arşın mal alan" musiqili komediyasının əsasında yazılmış "Fantaziya"nı ifa etdim. Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestri, solist-skripkaçı mən və dirijor Moskva Dövlət Konservatoriyasının professoru Leo Qinzburq idi. Konsertdə ifa olunmuş əsər dinləyicilər tərəfindən rəğbətlə qarşılandı".

1950-ci illərdən başlayaraq Azərbaycan Dövlət Filarmoniyasının nəzdindəki trioda skripkaçı kimi fəaliyyət göstərməsi də bəstəkarın uğurlu yaradıcılıq inkişafından xəbər verir. Görkəmli bəstəkarlarımızın bir sıra əsərlərinin ilk ifaçısı olmuş T.Bakıxanov F.Əmirovun skripka, fortepiano və simfonik orkestr üçün ikili konsertini, S.Ələsgərovun "Xatirə", "Romans" triolarını (S.Əliyev və E.Əliyeva ilə birlikdə), skripka və fortepiano üçün sonatasını, C.Cahangirovun skripka və fortepiano üçün sonatinasını, skripka və simfonik orkestr üçün konsertini məharətli ifası ilə musiqisevərlərə təqdim etmişdir.

Görkəmli bəstəkar Tofiq Bakıxanova müəllimi dahi Üzeyir bəyin adına olan mükafatı almaq da nəsib olmuşdur. Onun AMEA-nın akademik Üzeyir Hacıbəyov adına mükafatı ilə təltif olunması 2017-ci ilin aprel ayında baş tutmuşdur. Bəstəkar özü deyir ki, bu mükafat onun üçün ən ali, ən əziz olan mükafatlar sırasındadır.

T.Bakıxanovun həyat və yaradıcılığında Azərbaycanımızın ən qədim və səfalı guşələrindən olan doğma Naxçıvanımızla bağlılıq qabarıq şəkildə özünü göstərir. Bəstəkarın özünün təbirincə desək, Naxçıvan diyarı ilə bağlı olan anları onun həyatının ən gözəl xatirələrinin mühüm hissəsini təşkil edir. Tofiq Bakıxanovun Naxçıvana olan sevgi və məhəbbəti muxtar respublika rəhbəri tərəfindən də yüksək qiymətləndirilmiş və daim diqqət mərkəzində saxlanılmışdır. Ali Məclisin Sədri cənab Vasif Talıbovun milli musiqimizin, mədəniyyətimizin inkişafına, təbliğinə, sənətə və sənətkara verdiyi önəm sayəsində Naxçıvan musiqi ictimaiyyəti Tofiq Bakıxanov yaradıcılığı ilə daha dərindən tanış olmaq şansı əldə etmişdir. Bildiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun sərəncamları ilə Tofiq Bakıxanovun 75, 80 və 85 illik yubileyləri, eyni zamanda Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyi Naxçıvanda yüksək səviyyədə qeyd olunmuşdur. Bəstəkar Tofiq Bakıxanov Naxçıvana hər gəlişində buradan olduqca razı halda geri dönmüş, xoş təəssüratlarını mətbuatda, televiziyada öz müsahibələrində dilə gətirmişdir: "Mənim Naxçıvana olan səfərlərimin hamısı maraqlı və yaddaqalan olub. Ancaq bu səfərimdən (2016-cı ilin oktyabr ayı. G.M.) daha böyük təəssüratla qayıtdım. Çünki Naxçıvanın möhtəşəm inkişafının son nailiyyətlərini gördüm, oradakı elm, təhsil, mədəniyyət xadimlərinin hər cür qayğı ilə əhatələndiyinin şahidi oldum, şəxsən öz yaradıcılığımın yüksək səviyyədə qiymətləndirilməsinin sevincini yaşadım. Ali Məclisin Sədri cənab Vasif Talıbov yenə də məni şəxsən qəbul etdi və Azərbaycan mədəniyyətinin bugünkü uğurları barədə əhatəli şəkildə səmimi söhbətimiz oldu. Həm də ona görə məmnun oldum ki, Naxçıvanda atam Əhməd ağa Bakıxanovdan musiqinin bir çox sirlərini öyrənmiş sənətkarlarla yanaşı, özümün keçmiş tələbələrimlə də görüşdüm. Qətiyyətlə deyə bilərəm ki, bu gün Naxçıvanda musiqi mədəniyyətimiz, həqiqətən, heç zaman görünməmiş inkişaf mərhələsini yaşayır. Yerli sənətkarların ifasında elə musiqi parçaları eşitdim ki, onları dinləyən istənilən azərbaycanlı, sadəcə, fəxr edə bilər".

Görkəmli bəstəkar Naxçıvana təkcə yubileydən-yubileyə yox, həm də burada fəaliyyət göstərən musiqi ocaqlarında müəllim və tələbələrlə görüşlərə, ustad dərslərinə də dəvət olunmuşdur. O, dəfələrlə Naxçıvan Dövlət Universitetində, Naxçıvan Musiqi Kollecində, eyni zamanda musiqi məktəblərində həm tələbələrə ustad dərsləri keçmiş, öz dəyərli məsləhətlərini vermiş, həm də tələbələrin ifasında təşkil olunan konsertlərin, tədbirlərin dinləyicisi olmuş, çox razı qalmışdır. Bəstəkar bu barədə öz geniş təəssüratlarını bölüşərkən Naxçıvanda müəllimlərin, sözün həqiqi mənasında, milli mədəniyyətimizə, musiqi incəsənətimizə özünəməxsus töhfələr verə biləcək gənclərə xüsusi qayğı ilə yanaşdıqlarını, istedadlı musiqiçilər nəsli yetişdiyini vurğulamışdır.

2017-ci ildə ilk peşəkar naxçıvanlı bəstəkar olan Məmməd Nəsirbəyovun anadan olmasının 120 illik yubileyi Naxçıvanda yüksək səviyyədə qeyd olunmuşdur. Həmin yubiley tədbirinə Tofiq Bakıxanovun da dəvət olunması və şəxsən iştirakı təsadüfi deyildi. Çünki Tofiq müəllim bəstəkar Məmməd Nəsirbəyovun yaradıcılıq irsinin tədqiqatçısı (bəstəkar Nazim Quliyevlə birlikdə) olmuş, Məmməd Nəsirbəyov haqqında kitab ərsəyə gətirmişdir. Tədbirdə iştirak edən Tofiq müəllim öz ürək sözlərini və xatirələrini bölüşmüşdü.

Tofiq Bakıxanov, həmçinin Naxçıvana olan sevgisini və heyranlığını belə ifadə etmişdir: "Bilirsiniz, Naxçıvan mənim üçün çox ulu bir şəhərdir. Həm də çox müqəddəsdir. Ona görə ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu torpaqda dünyaya göz açıb. Hava limanında təyyarədən enərkən elə oradaca qeyri-adi hisslərə bürünürəm. Mən dünyanın bir çox gözəl şəhərlərində olmuşam. Bu gözəl şəhərlər sırasında Naxçıvan da yaddaşımda möhkəm yer tutub. Sonuncu dəfə 2006-cı ildə olmuşdum. O zaman da çox gözəl idi. İndi isə daha da gözəlləşib. Buranın təkcə suyu, havası yox, siması da gözəldir. Müasir binalar, səliqəli yollar, təmizlik insana xoş təsir bağışlayır. Burada hər şey çox ürəkaçandır. İnsanları da xoşbəxtdirlər ki, belə bir qədim və eyni zamanda gözəl bir diyarda yaşayırlar". Bu qədim diyar Tofiq Bakıxanovun həm də ilham mənbəyi olmuş, bəstəkar öz məhəbbətini musiqi ilə də dilə gətirmişdir. Bəstəkarın xalq çalğı alətləri orkestri və simfonik orkestr üçün yazdığı "Naxçıvan" simfoniyettası maraqlı əsərlərindən biridir. Əsəri dinləyərkən doğma elimizin füsunkar təbiəti, qədim tarixi və mədəniyyəti, mehriban insanları, sanki gözlərimiz önündə canlanır. Əməkdar jurnalist İttifaq Mirzəbəyli bu əsər haqqında öz qiymətli fikirlərini belə qələmə almışdır: "Bu simfoniyettada Naxçıvanın Əcəmi Naxçıvanidən Hüseyn Cavidə qədər olan mədəniyyətinin, Əshabi-Kəhfdən Batabata qədər olan Allah vergisinin, Babəkdən ümummilli lider Heydər Əliyevə qədər olan şəxsiyyətlərinin obrazını görməmək mümkün deyil".

Ümumiyyətlə, zəngin yaradıcılıq irsinə malik olan bəstəkarın kamera-vokal əsərləri arasında "Naxçıvan təranələri", "Xoş ovqatlı mahnılar" mahnı məcmuələrində naxçıvanlı şairlərin sözlərinə bəstələdiyi doğma diyarımıza həsr olunmuş mahnılar da Tofiq müəllimin qədim Naxçıvanımıza olan sevgisinin ifadəsidir. Məcmuədə akademik İsa Həbibbəylinin, tanınmış şairlər İslam Səfərlinin, Ramiq Muxtarın, Asim Yadigarın, Adil Babayevin və başqalarının sözlərinə yazılmış mahnılar mövzu və melodiya baxımından rəngarəngdirlər. "Naxçıvan" (bu mahnı Azərbaycan Televiziyası Baba Salahov adına Xalq Çalğı Alətləri Ansamblının müşayiəti ilə Əməkdar artist Nuriyyə Hüseynovanın ifasında lentə alınaraq Dövlət Radiosunun "Qızıl fondu"nda saxlanılır), "Nurlu Naxçıvan", "Arpaçay", "Batabat bağları" və başqa mahnılar onun qələmindən çıxmış, ümummilli lider Heydər Əliyevdən bəhs edən "Həmişə bizimləsən" adlı simfonik poeması da bəstəkarın məhz Naxçıvan səfərlərindən aldığı yüksək enerji və ilhamın meyvəsi olmuşdur. "Həmişə bizimləsən" simfonik poeması da Tofiq müəllimin dəyərli əsərləri sırasına daxildir. İlk dəfə məhz Naxçıvanda, bəstəkarın 75 illik yubiley tədbirində səsləndirilmiş bu əsər Bakıdan əvvəl Naxçıvanda ekranlaşdırılmışdır. Əsər beş il sonra bəstəkarın 80 illik yubileyi zamanı təşkil olunmuş konsertdə yenidən dinləyicilərin gurultulu alqışlarını qazanmışdır. Hətta həmin vaxt geniş tədbirdən sonra səhnə arxasına keçən Ali Məclisin Sədri cənab Vasif Talıbov bütün ifaçılara səmimi təbriklərini çatdırmış, Tofiq Bakıxanov yaradıcılığını yüksək musiqişünaslıq qabiliyyəti ilə təhlil edərək demişdir: ***"Tofiq Bakıxanovun yaradıcılığı o qədər geniş, mənalıdır ki, onun əsərlərinin – simfoniyalarının, lirik və tərənnüm mahnılarının hər birinin öz yeri, öz gözəlliyi vardır. Rəssam insanı nə qədər dərindən tanısa, onun xarakterini bilsə, həmin əsər o qədər gözəl alınar. Bəstəkarın Vətəninə bağlılığı, Azərbaycana dərindən bələd olması mahnılarından görünür. Azərbaycanı tanımayanlar Tofiq Bakıxanovun Vətənimizi tərənnüm edən mahnılarını dinləyib ölkəmizi tanıya, sevə bilərlər. Onun simfonik orkestr üçün yazdığı "Həmişə bizimləsən" əsəri ümummilli liderimizin unudulmaz xatirəsinə tükənməz məhəbbətin ifadəsidir".***

Tofiq Bakıxanov, sadəcə, görkəmli bəstəkar deyil, həm də heyrətamiz insan və gözəl müəllimdir. Bu qədər tanınmış ustad olmasına baxmayaraq, daim axtarış cəsarətini itirməyən və yaradıcılıq enerjisi əvvəlki kimi aşıb-daşan sənətkara səmimi və mehriban xarakteri, həssaslığı və məsuliyyəti ətrafdakı insanların sevgisini və dərin hörmətini qazandırıb. Bu fikri Tofiq müəllimlə əyani surətdə tanış olan hər bir kəs tam əminliklə təsdiq edə bilər. Tofiq Bakıxanovun çalışmaq, yazıb-yaratmaq eşqi onu ilk dəfə tanıyan insanlara sirayət edir, onun sənətə bağlılığı gənc nəsildə sənətə qarşı sevgi və məsuliyyət hissi oyadır.

Bu il Azərbaycan musiqi mədəniyyəti tarixində və inkişafında özünəməxsus xidmətləri olan görkəmli bəstəkarımızın anadan olmasının 90 ili tamam olur. Çoxaspektli və geniş yaradıcılıq fəaliyyətinə malik olan, milli ənənələrə böyük məsuliyyət və ciddiliklə yanaşan, musiqinin akademik janrlarında yazıb-yaradaraq milli musiqi sənətimizə dəyərli əsərlər bəxş edən, əsərlərində yüksək peşəkarlıq və orijinal yanaşma tərzi nümayiş etdirən bəstəkar, qocaman sənətkar Tofiq Bakıxanovu qarşıdan gələn yubiley münasibətilə ürəkdən təbrik edir, ona sağlam ömür arzu edirik!

**Günay MƏMMƏDOVA**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, musiqişünas, Bəstəkarlar İttifaqının üzvü*
*"Xalq qəzeti", 20 sentyabr 2020-ci il*

## Ədliyyə qulluqçuları and içib

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində yerli icra və probasiya şöbə və bölmələrinin vakant ədliyyə qulluğu vəzifələrinin tutulması üçün keçirilən müsabiqədə müvəffəqiyyət qazanmış namizədlərin andiçmə mərasimi olub.***

Mərasimi Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, baş ədliyyə müşaviri Daşqın Rəhimov açaraq bildirib ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, ədliyyə sahəsi də yüksək diqqət və qayğı ilə əhatə olunub. Ədliyyə sistemində müasir tələblərə cavab verən dövlət idarəetmə mexanizmi formalaşıb. Qeyd edilib ki, ədliyyə orqanlarına qulluğa qəbul aşkarlıq və şəffaflıq prinsiplərinə uyğun həyata keçirilib.

Sonra gənc ədliyyə qulluqçuları çıxış edərək yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər. Təyinat alan əməkdaşların əmrləri elan olunub, gənc ədliyyə qulluqçuları Azərbaycan Respublikasının Dövlət Bayrağının önündə and içib, andın mətnini imzalayıblar.

Sonda nazir icra məmurlarının vəzifələrini diqqətə çatdırıb. Vurğulanıb ki, ədliyyə qulluqçuları səlahiyyətlərini icra edərkən, ilk növbədə, dövlətin və cəmiyyətin mənafeyini əsas götürməli, vəzifələrini böyük məsuliyyət və ləyaqətlə yerinə yetirməlidirlər. Ədliyyə qulluqçularının anda sadiq qalacaqlarına, ümummilli liderimiz Heydər Əliyevin ideyalarına, dövlətə və dövlətçiliyə sədaqətlə xidmət edəcəklərinə, göstərilən etimadı doğruldacaqlarına əminliyini ifadə edən nazir onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

*Naxçıvan Muxtar Respublikası*
*Ədliyyə Nazirliyinin mətbuat xidməti*

***Ailə mədəniyyəti, ailə dəyərləri bu gün dünyadakı xalqların sayı qədər rəngarəng, müxtəlif və özünəməxsusdur. Hər bir xalq, etnos özünün tarixən formalaşmış mental dəyərləri əsasında ailə modeli yaradır. Fəxrlə deyə bilərik ki, qədim Şərq və müasir Qərb mədəniyyətinin ən üstün cəhətlərini özünün zəngin adət-ənənələri ilə sintez edən ölkəmizdə ailə institutuna böyük dəyər verilir. Milli düşüncə sistemimizdə özünə yer tapmış qənaətlərdən biri də budur ki, ailə başçısı kimi məsuliyyətini düzgün dəyərləndirməyən bir şəxs kamil insan və şəxsiyyət ola bilməz. Yalnız yüksək əxlaqi keyfiyyətlərə, xalqın minillik milli dəyərlərinə ürəkdən bağlı olan insanlar ailənin cəmiyyətdəki rolunu hər zaman düzgün qiymətləndirə bilmişlər.***

# Milli dəyərlərimizə əsaslanan ailə münasibətləri hüquqi cəhətdən də tənzimlənir

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında hər bir vətəndaşın nikah hüququ təsbit edilib, dövlətin ailəyə qayğı siyasətinin əsas prioritetləri müəyyənləşib. Konstitusiyamıza əsasən ailə və uşaqlar dövlətin himayəsi altındadırlar. Konstitusiyanın ailə hüquqlarının müdafiəsinə yönəlmiş əsas norması hamının qanun və məhkəmə qarşısında bərabərliyini, kişi ilə qadının eyni hüquq və azadlıqlara malik olduğunu bəyan edən "bərabərlik hüququ" adlanan normasıdır. Burada hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verilir, insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılması qadağan edilir.

Əsas qanunun nikah münasibətləri zamanı iradə azadlığını, ərlə arvadın hüquq bərabərliyini tənzimləyən müddəaları da diqqətəlayiqdir. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququnu müəyyən edən həmin maddəyə əsasən nikah könüllü razılıq əsasında bağlanılır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ailə dəyərlərinə qəlbən bağlı lider kimi ölkəmizdə bu institutun möhkəmlənməsinə, problemlərinin həllinə çalışır. ***"Ailə və uşaq problemləri çox böyük əhəmiyyət daşıyır. Ailə dəyərləri xalqımız üçün həmişə çox doğma olub, çox əziz olub və deyə bilərəm ki, ailə dəyərləri, əslində, bizim milli dəyərlərimizdir. Azərbaycan dünya birliyinə inteqrasiya edir. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır"***, – deyən dövlət başçısının təşəbbüsü əsasında aztəminatlı ailələrə ünvanlı sosial yardımların, habelə gənc ailələrə ipoteka kreditlərinin verilməsi, ümumilikdə, ailə institutuna göstərilən qayğının tərkib hissəsidir. Məhz bu siyasətin nəticəsi kimi Azərbaycanda ailə quran gənclərin sayı ildən-ilə artır, boşanmaların sayı isə azalır.

Ailə dəyərlərinə xüsusi diqqət və qayğı ilə yanaşılması muxtar respublikamızda da ailə siyasətinin əsasını təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yüksək qayğısı ilə muxtar respublikamızda ailə institutu inkişaf etdirilir. Belə ki, aparılan genişmiqyaslı tikinti-quruculuq tədbirləri çərçivəsində ailələrin, o cümlədən gənc və aztəminatlı ailələrin mənzil şəraitlərinin yaxşılaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir, sosial məsələlərin həlli ilə bağlı əhəmiyyətli addımlar atılır. Həyata keçirilən sosial siyasətin mühüm bir istiqaməti də mənzillərin ipoteka yolu ilə gənc ailələrə verilməsidir. ***"İnsan həyatında mənzilin böyük əhəmiyyəti vardır. İnsan sağlamlığının, ailə xoşbəxtliyinin əsas amillərindən biri də məhz budur"***, – deyən Ali Məclis Sədrinin bu qiymətli fikirləri ailə dəyərlərinə nə qədər böyük önəm verdiyinin əyani təzahürüdür. Muxtar respublikada yaşayan aztəminatlı ailələrə baş çəkilir, onların problemlərinin həlli istiqamətində müvafiq işlər görülür, ailə üzvlərinə tibbi xidmət göstərilir, onların zəruri ehtiyacları ödənilir. Həmçinin ailə münasibətlərinin qorunub saxlanılması istiqamətində aidiyyəti dövlət orqanları kütləvi informasiya resurslarından istifadə etməklə hüquqi maarifləndirmə tədbirləri həyata keçirilir. Məqsəd milli dəyərlərimizin əsas hissəsi olan ailə dəyərlərinin qorunub yaşadılması istiqamətində hüquqi tənzimlənmənin həyata keçirilməsidir.

Göründüyü kimi, Konstitusiya və qanunlarımız ailənin cəmiyyətdəki layiqli mövqeyinə təminat yaradır. Dövlətin bu sahədəki siyasətini özündə ehtiva edən Azərbaycan Respublikasının Ailə Məcəlləsi isə Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulan əsas insan və vətəndaş hüquq və azadlıqlarına uyğun olaraq ailə münasibətlərinin yaranmasının, möhkəmlənməsinin, onlara xitam verilməsinin prinsiplərini, ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrini, dövlət orqanlarının bu sahədə vəzifələrini, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması qaydalarını tənzimləyən normaları müəyyən edir. Eyni zamanda ailə üzvləri (ər-arvad, valideynlər və uşaqlar), eləcə də ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda, həmçinin başqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, habelə valideyn himayəsindən məhrum olan uşaqların tərbiyəyə götürülməsi qaydalarını müəyyən edir. Ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir.

Ailə Məcəlləsinə əsasən Azərbaycan Respublikasında nikah yaşı kişilər və qadınlar üçün 18 yaş müəyyən edilib. Eyni zamanda Konstitusiyada təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər. Analıq, atalıq, uşaqların tərbiyə və təhsili, eləcə də ailənin digər məsələləri ər-arvadın hüquq bərabərliyi prinsiplərinə uyğun olaraq birgə həll edilir. Ər (arvad) özünə məşğuliyyət, sənət və yaşayış yeri seçməkdə azaddır. Ər və arvad ailədə öz münasibətlərini qarşılıqlı yardım, hörmət hissi əsasında qurmalı, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərməli, övladlarının inkişafı üçün əlverişli şərait yaratmalı və onların sağlamlığının qayğısına qalmalıdırlar.

Ailə Məcəlləsinə görə, nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzrlü səbəblərə görə müstəqil qazancı olmayan ər (arvad) da ümumi əmlak üzərində bərabər hüquqa malikdir. Həmçinin ailə qanunvericiliyi nikaha xitam verilməsinin əsaslarını da müəyyən edir. Göstərilir ki, ər (arvad) öldükdə, yaxud məhkəmə qaydasında ölmüş elan edildikdə nikaha xitam verilir. Ərin (arvadın) və ya onların hər ikisinin ərizəsi əsasında, eləcə də məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edilən ərin (arvadın) qəyyumunun ərizəsi əsasında nikaha xitam verilə bilər.

*Qeyd edildiyi kimi, ölkəmizdə ailə münasibətlərinin hüquqi tənzimlənməsi sahəsində mükəmməl qanunvericilik bazası yaradılıb. Ona görə də hər bir vətəndaş ailə qanunvericiliyinin müddəalarını nəzərə almaqla çalışmalıdır ki, onun ailəsində olan dəyərlər itməsin, bütün həyatı boyu digər ailə üzvləri ilə birlikdə əsrlərdir, formalaşan ailə dəyərlərimiz yaşadılsın, möhkəmləndirilsin.*

**Səttar ZAMANOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin rəisi, baş ədliyyə müşaviri***

# Fövqəladə hallara hazırlıq tədbirləri davam etdirilir



***Muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası avqust ayında da davam etdirilmişdir.***

Hesabat ayında cari ilin birinci yarısında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı nazirliyin kollegiya iclası keçirilmiş, 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı tədbirlər planı hazırlanmış, Naxçıvan şəhərində və rayonlarda 550 qazanxanada texniki və yanğın təhlükəsizliyinin təmin olunmasına baxış olmuş, həmçinin maarifləndirmə işi aparılmışdır.

Muxtar respublikada mülki müdafiə işinin təşkili məqsədilə 53 müəssisə və təşkilatda mülki müdafiə sənədlərinin qanunvericiliyin tələblərinə uyğun işlənilməsinə metodik köməklik göstərilmiş, 7 tibb müəssisəsində radiasiya təhlükəsizliyinin vəziyyəti yoxlanılmış, 2 tibb müəssisəsinə radioloji-gigiyenik pasport verilmişdir.

Avqust ayında da pandemiyaya qarşı qabaqlayıcı profilaktik tədbirlər davam etdirilərək Şərur və Babək rayonları ərazisində, ümumilikdə, 170 min kvadratmetr sahədə dezinfeksiya işi aparılmışdır.

Muxtar respublika ərazisində yanğın təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə 116 obyektdə diqqətli, 276 obyektdə nəzarı, 33 obyektdə məqsədli yoxlamalar keçirilmiş, 2 min 861 yaşayış evinə baxış keçirilərək yanğın cəhətdən təhlükəli olan 32 elektrik xəttinin, 60 şlanqla çəkilmiş qaz xəttinin dəyişdirilməsi təmin edilmiş, 72 tezqatlanan tüstü borusunun istismarı dayandırılmışdır. Həmçinin 34 obyektdə yanğına qarşı maarifləndirici tədbir keçirilmiş, 5 min 973 vətəndaş yanğına qarşı təlimatlandırılmışdır. 87 obyektlə icbari sığorta müqaviləsi bağlanmışdır. Şahtaxtı gömrükkeçid məntəqəsində könüllü yanğınsöndürmə komandasının hazırlığı yoxlanılmışdır.

Ay ərzində Uzunoba çimərliyində xilasedici dalğıcların xidməti təşkil edilmiş, suda boğulma təhlükəsi ilə üzləşmiş 5 vətəndaş xilas edilərək ilk tibbi yardım göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Şahmat birincilikləri keçirilir



*Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən keçirilən şəhər və rayon birincilikləri, yoldaşlıq görüşləri davam etdirilir.*

Ordubad Rayon Şahmat Məktəbində ümumtəhsil məktəblərində şahmat fənnini tədris edən müəllimlər arasında keçirilən şahmat üzrə rayon birinciliyinə yekun vurulub. Rayon Təhsil Şöbəsi, Şahmat Federasiyasının rayon bölməsi və Gənclər və İdman İdarəsinin təşkil etdiyi birincilikdə 24 məşqçi-müəllim olimpiya sistemi üzrə mübarizə aparıb. Yekunda Elmar Süleymanlı qalib adını qazanıb. Etibar Rzayev ikinci, Lamiyə Məmmədova isə üçüncü olub.

Sədərək Rayon Təhsil Şöbəsi, Gənclər və İdman İdarəsi və Şahmat Federasiyasının rayon bölməsinin təşkilatçılığı ilə keçirilən birincilikdə isə ümumtəhsil məktəblərində şahmat fənnini tədris edən müəllim və şagirdlər arasında birincilik keçirilib. Olimpiya sistemi üzrə keçirilən turnirdə Qələndər Əliyev hamıdan güclü olub. Digər iki pillədə Xaliq Cəfərov və Sənan Rzalı qərarlaşıblar.

Qaliblər təşkilatçılar tərəfindən diplom və fəxri fərmanlarla mükafatlandırılıblar.

Federasiya tərəfindən muxtar respublikanı əhatə edən onlayn yay dərsləri zamanı ay ərzində fəal olan şahmatçılar seçilib. Birincidərəcəli şahmatçılar üçün "Zoom" proqramı vasitəsilə beynəlxalq usta Talıb Babayev tərəfindən biraylıq onlayn dərs müddətində verilən tapşırıqları həll edərək ən yüksək xalı Nəsrin Babayeva toplayıb. Sadiq Abbasov bu seçimdə ikinci, Rza Həsənov isə üçüncü olub.

Ötən gün "Evdə qal, şahmat oyna!" devizi altında Naxçıvan Şahmat Federasiyasının, Bakının "Grand Master" Şahmat Klubunun, Quba Şahmat Məktəbinin və Hatayın "Şah Şahmat" Klubunun şahmatçıları arasında Lichess portalında yoldaşlıq görüşü də keçirilib. Blits turniri 5+3 vaxt intervalında olmaqla, 90 dəqiqə davam edib.

# *"LCD işıqlandırma vahidi üçün optiklər"* mövzusunda vebinar



Naxçıvan Dövlət Universitetində növbəti vebinar keçirilib. "LCD işıqlandırma vahidi üçün optiklər" adlı vebinarı Yaponiyada yaşayan dünya şöhrətli azərbaycanlı alim Xəlil Kələntər keçib. Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov tədbir iştirakçılarını salamlayıb, vebinarın işinə uğurlar arzulayıb.

Xəlil Kələntər LCD texnologiyaları sahəsində apardığı tədqiqatlara dair təqdimatla çıxış edib, LCD işıqlandırma vahidi üçün optiklər, panellərin arxa işıqlandırılması haqqında slaydlar vasitəsilə danışıb. Vebinarda həmyerlimiz dünyada ilk dəfə işıqla yönləndirilən optik mikroreflektorlu və mikrodeflektorlu optik lövhələrin, məişətimizə geniş daxil olan texnologiyaların əsas hissələrindən birinin – maye kristal displeyin arxa fon işıqlarının yaradıcısı kimi öz kəşfləri haqqında ətraflı məlumat verib. Alim tədbir iştirakçılarının suallarını cavablandırıb.

Qeyd edək ki, Xəlil Kələntər işıqla yönləndirilən mikrostrukturlu funksional optik lövhələrin ilk dizayneri və istehsalçısıdır. 2007-ci ilin mayında LCD işıqlandırılmasında istifadə edilən işıq şüaları üçün kəşf etdiyi yeni optik-dizayn metoda görə xüsusi mükafat, 2016-cı ildə Yaponiya Maye Kristal Cəmiyyətinin xüsusi "Texnoloji İnkişaf Mükafatı" alıb. Xəlil Kələntər apardığı araşdırmalarla yalnız Yaponiyada deyil, eyni zamanda Amerika və Avropada da yaxşı tanınır. Əsərləri ingilis, yapon, Çin və Koreya dillərində dərc olunub. LCD texnologiyaları üzrə yapon dilində 3 kitabın, həmçinin elektronik displeylə bağlı olan yapon və ingilis dillərində nəşr edilən 11 kitabın həmmüəlliflərindən biridir.

**Səadət ƏLİYEVA**

# Məşqçi kurslarına start verilib

*İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında futbol məşqçiləri üçün "C" kateqoriyalı məşqçi kurslarına start verilib.*

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının birgə təşkil etdiyi kursda muxtar respublikanın 15 gənc məşqçisi iştirak edir. Şərur Olimpiya İdman Kompleksində başlayan kurs müəyyən fasilələrlə 15 gün davam edəcək. Kursun sonunda hər bir məşqçidən imtahan götürüləcək və bu imtahanları müvəffəqiyyətlə başa vuran məşqçilərə "C" kateqoriyalı məşqçi lisenziyaları veriləcək.

Qeyd edək ki, kurs Bakı şəhərindən dəvət olunmuş AFFA-nın Məşqçilərin maarifləndirmə şöbəsinin müdiri Aslan Kərimov, təlimatçılar Osman Rəhimov və İlham Əzizzadə tərəfindən aparılır.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

"Gəmiqaya Turizm" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 0200474971 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 713